**Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumu**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu və UNICEF-lə birgə uşaqların öz hüquqları ilə bağlı qərarların qəbul edilməsində iştirakını təmin etmək, uşaqlara öz problemləri ilə bağlı təşəbbüslərlə çıxış etmək və təkliflər vermək imkanı yaratmaq, həmçinin ictimaiyyətin diqqətinin uşaq hüquqlarının qorunmasına yönəldilməsi məqsədilə 2009-cu ildə Azərbaycan Uşaqlarının I və 2011-ci ildə Azərbaycan Uşaqlarının II Ümumrespublika Forumu keçirilmişdir. Forumlar ölkə üzrə bütün şəhər və rayonları təmsil edən uşaqların iştirakı ilə keçirilmişdir. Ötən müddət ərzində Forumlarda iştirak edən uşaqlar tərəfindən səsləndirilən bütün təkliflər hökumət tərəfindən hazırlanan müxtəlif proqramlarda öz əksini tapmışdır. Forum həm də əsas verir ki, hər bir uşaq onu düşündürən, narahat edən məsələləri dilə gətirsin, problemlərin birgə həlli yollarını araşdırsın. Məhz bu Forumlar istedadlı uşaqların üzə çıxmasında mühüm rola malikdir.

Forumlar uşaqların öz bacarıqlarını nümayiş etdirmək üçün bir vasitəyə çevrilmişdir. Həmçinin Forum uşaqların ictimai fəallığının artırılmasında, iştirak hüququnun təmin edilməsində və liderlik keyfiyyətlərinin formalaşmasında mühüm əhəmiyyətə malikdir.

***Azərbaycan Uşaqlarının III Forumu bu il noyabr ayının 17-də Bakı şəhərində (Absheron JW Marriott oteli) saat 08:00-da keçiriləcək.***

Foruma Azərbaycanın bütün şəhər və rayonlarından öz fəallığı və intellektual səviyyəsi ilə seçilən, fikirlərini sərbəst şəkildə ifadə edə bilən 350 nəfərə yaxın uşaq, həmçinin xüsusi istedadı olan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, sağlamlıq imkanları məhdud, digər millətlərdən olan, valideyin himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün ailələrdən olan uşaqlar nümayəndə qismində seçilmişdir.

İnsan hüquqları üzrə Müvəkkili(Ombudsman) Aparatının "Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi", C.Naxçıvanski adına hərbi liseydə təhsil alan kursantlar, Dövlət Sərhəd Xidmətinin Mərdəkan qəsəbəsindəki xüsusi məktəbində təhsil alan şagirdlər, qeyri-hökumət təşkilatlarını təmsil edən uşaqlar, Komitənin dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycanın Gələcəyi" Uşaq və Gənclər Təşkilatının üzvləri arasından da Foruma nümayəndələr seçilmişdir.

Seçilmiş Forum nümayəndələrinin məlumatlandırılması məqsədilə nümayəndələr üçün Forum haqqında müvafiq məlumatlar və iştirak vərəqəsi şəhər/rayon İcra Hakimiyyətlərinə göndərilmişdir.